STP ŞİRKƏTLƏR QRUPU



# STP Aluminium

Alüminium pəstah və profillərin istehsalı

www.stp.az


STP

# MÜNDƏRİCƏT


02 ÜMUMİ MƏLUMAT

04 GÜCLƏRİMİZ VƏ ÜSTÜNLÜKLƏRİMİZ

05 MƏHSUL VƏ XİDMƏT

06 KEYFİYYƏT KONTROLU

08 BİZİM İLƏ ƏLAQƏ

# STP ALUMINIUM

## ÜMUMİ MƏLUMATLAR

**STP Şirkətlər Qrupu**, tikinti sektoru və sənaye tətbiqləri üçün geniş təyinatlı alüminium profillərin istehsalı üzrə ixtisaslaşmışdır. Bu profillər qapı-pəncərə sistemlərində, mebel və fasad konstruksiyalarında, həmçinin digər mühəndislik və memarlıq həllərində istifadə olunur. Müəssisənin alüminium ekstruziya press xətləri ildə 4500 ton profil istehsalı, toz boya xətləri isə **2880 ton metal** profilin rənglənməsi gücünə malikdir.

STP-nin istehsal etdiyi alüminium profillər, müxtəlif ölçü, forma və texniki konfiqurasiyalara malik olmaqla ekstruziya texnologiyası vasitəsilə formalaşdırılır. İstifadə olunan xammal, müəssisənin özünə məxsus alüminium əridilmə və billet tökmə sahələrində emal edilir. Bu isə STP-ni regionda tam inteqrasiya olunmuş istehsal zəncirinə sahib olan nadir müəssisələrdən birinə çevirir.

İstehsal proseslərinə nəzarət və səmərəliliyin təmin olunması üçün burada **“HANKELL Rus”** (Rusiya) və **“TAISS”** (İtaliya) kimi qabaqcıl texnologiya mərkəzlərində təlim keçmiş ixtisaslı mütəxəssislər fəaliyyət göstərir. Bu amillər STP-nin alüminium profil istehsalında davamlılıq, dəqiqlik və tətbiq çevikliyini təmin etməsinə imkan yaradır.



## İSTEHSAL GÜCÜ

ALÜMİNİUM PROFİLLƏRİ

**4 500** ton/il

ALÜMİNİUM PƏSTAH

**30 000** ton/il

TOZ BOYA

**2 880** ton/il



# SAHƏLƏR

ƏRİTMƏ

EKSTRUZİYA

TOZ BOYA

TEXNİKİ QALAR

# SEKTORLAR

NEFT VƏ QAZ

İNŞAAT

# İXRAC

- QAZAXISTAN
- SERBİYA
- TÜRKİYƏ
- POLŞA
- AVSTRİYA
- ÇEXİYA
- KANADA
- İSRAİL

# AVADANLIQLAR

«HANKELL RUS» - RUSİYA

«TAİSS» - İTALİYA

«BOTERSAN» - TÜRKİYƏ

«SMS» - ALMANIYA

«WAGSTAFF» -ABŞ

# GÜCLƏRİMİZ VƏ ÜSTÜNLÜKLƏRİMİZ

## Alüminium pəstah və profillərin istehsalı

Müəssisədə sahə üzrə ixtisaslaşmış şirkətlərdə təlim keçmiş mütəxəssislər fəaliyyət göstərir. Alüminium əritmə və pəstahllama sahəsində xammal əridilərək profillərin istehsal sahəsinə göndərilir. Sobaların illik məhsuldarlığı **30 000 tondur**.

Alüminium və mis profilləri zavodu A6005, A6060, A6061, A6063, A6082, AD31, AD33 markalı, diametri 152 mm, 178 mm, 203 mm, 254 mm və uzunluqları 6-7 metr olan alüminium pəstahlar (billetlər), isti və soyuq şərti ilə alüminium profillər, qapı-pəncərə sistemləri, yüksək gərginlikli yarımstansiya və dolablarda istifadə olunan müxtəlif ölçülü alüminium şinlər, standart profillər, habelə müştərinin istəyinə uyğun müxtəlif profillər istehsal olunur.

Boyalar aparat vasitəsi ilə profillərin səthinə püskürdülərək 40 metr uzunluğunda olan polimerizasiya (bişirmə) sobasına doğru hərəkət edir. Boyanın qalınlıqları ölçülərək yoxlanılır və **ГОСТ 22233-2018**, 9.410-88 standartlarına uyğunluğu yoxlanılır.

**Boyama məhsuldarlığı:** 9,6 ton/gün, 240 ton/ay, 2880 ton/il

Tətbiq edilən əsas sahələr:

**MAŞINQAYIRMA**

**GƏMİQAYIRMA**

**TİKİNTİ-İNŞAAT**

**MEBEL İSTEHSALI**










# MƏHSUL VƏ XİDMƏT

**ALÜMINIUM PƏSTAHLAR** (uzunluq 6 metrədək, ölçü 152mm, 178mm, 203mm və 254mm)

**ALÜMINIUM PROFILLƏR** boyalı və boyasız (istənilən eskizə uyğun, ölçüsü **25mm**-dən **280mm**-dək, uzunluq 6.8 metrədək İstənilən RAL koda uyğun Toz boya xidməti göstərilir.



**Pəncərə sistemləri**



**Fasad profilləri**



**İsti və soyuq seriyali profillər**



**Elektrotexniki çubuqlar**



**Alüminium pəstahlar**



**Alüminium elektrik şinləri**



**Toz boya** xidməti

# KEYFİYYAT KONTROLU

## LABORATORİYA

**STP**-nin istehsal ərazisində fəaliyyət göstərən müasir laboratoriya avadanlıqları vasitəsilə məhsulların texniki göstəriciləri və keyfiyyət uyğunluğu bütün mərhələlərdə ciddi nəzarət altındadır.

Hər bir profil, istehsaldan əvvəl və sonra davamlılıq, ölçü dəqiqliyi və standartlara uyğunluq baxımından sınaqdan keçirilir. Nəticədə, müştərilərə təqdim olunan məhsullar **BEYNƏLXALQ KEYFİYYƏT** normalarına cavab verən rəsmi sertifikatlarla təsdiqlənir.

**STP olaraq,**

istehsal etdiyimiz hər bir məhsulun keyfiyyətinə və etibarlılığına Ğtam zəmanət veririk.





Sifarişçi
layihəsinə uyğun
**PROFİL**
**İSTEHSALI**









Yüngül,
amma sərt və
**DÖZÜMLÜ**
**MATERIALDIR**

Bizim ilə

# ƏLAQƏ


H.Z. Tağıyev qəsəbəsi,
Sumqayıt, Azərbaycan AZ5022

***0990**

info@stp.az / info@stp.az





STP sənaye tələblərinə cavab verən istehsal imkanları və keyfiyyətə əsaslanan yanaşması ilə müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlərlə əməkdaşlıq edir.

Müasir texnologiyalarla təchiz olunmuş avadanlıqlarımız və çevik istehsal infrastrukturumuz, tərəfdaşlarımıza yüksək keyfiyyətli və funksional həllər təqdim etməyə imkan verir.

Sınaqlardan keçirilmiş sistemlərimiz və peşəkar komandamız əməkdaşlığın etibarlı əsaslar üzərində qurulmasına şərait yaradır.

Əgər Siz də istehsalda sabitlik və funksionallıq axtarırsınızsa, STP ilə əməkdaşlıq imkanlarını dəyərləndirə bilərsiniz.








STP
ALUMINIUM